# Qayğıkeşlik nümunəsi

**Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu sosial siyasət, insanların rifah halının daha da yaxşılaşdırılması istiqamətində görülən məqsədyönlü tədbirlər xalqımız tərəfindən daim yüksək qiymətləndirilir və dəstəklənir. Xüsusilə, həssas qruplara göstərilən diqqət, onların sosial müdafiəsi və həyat şəraitinin yüksəlməsi üçün bütün imkanlar səfərbər olunur. Dövlət başçımızın çağırışına bütün dövlət və qeyri-hökumət təşkilatları qoşularaq sosial müdafiəyə ehtiyacı olan vətəndaşlarımızı daim öz diqqət və qayğıları ilə əhatə edirlər. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu sahədəki fəaliyyəti nəinki ölkəmizdə, ölkəmizin hüdudlarından kənarda da nümunəyə çevrilib.**

İstər Birinci Qarabağ, istərsə də 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəman oğullarımızın ailələri, valideynləri, yaxınları, həmçinin hər iki müharibədə əlil olmuş şəxslər, veteranlar dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli dövlət qayğısı ilə əhatə olunurlar. Hələ ulu öndər Heydər Əliyev Prezident olduğu vaxtlar həmin kateqoriyadan olan şəxslərin sosial vəziyyətinin yaxşılaşdırılması dövlət siyasətinin əsasını təşkil edirdi. Həssas kateqoriyadan olan şəxslərə mənzillər və avtomobillər verilir, işlə təmin olunur, digər problemləri aradan qaldırılırdı. Bu nəcib missiyanı möhtərəm Prezidentimiz ləyaqətlə davam etdirir. Xatırladaq ki, parlaq qələbəmizin təmin olunduğu Vətən müharibəsi başa çatandan dərhal sonra Prezident şəhid ailələri, qazilər, müharibə iştirakçıları, həmçinin müharibədən ziyan çəkmiş insanlarımız barədə göstərişlər vermiş, onları tamamilə dövlət qayğısı altına almışdır. Müvafiq sərəncamlarla qəhrəman hərbçilərimiz medallarla təltif olunmuşlar.

Dövlətimizin diqqət və qayğısı bununla məhdudlaşmır, şəhid ailələri və veteranlar işlə təmin olunur, özünüməşğulluq proqramına, ictimai işlərə cəlb edilir, onlara reabilitasiya xidmətləri göstərilir, həmçinin yaralı və sağlamlığını itirmiş hərbçilər ən müasir, yeni nəsil protezlərlə təmin edilir. Məhz cənab İlham Əliyevin onlara olan münasibəti sayəsində bu gün şəhidlərimiz, qazilərimiz, ümumiyyətlə, bütün müharibə iştirakçıları cəmiyyətimizdə böyük nüfuz sahibidirlər, xalqımız şəhidlərimizi böyük ehtiramla anır, xatirələrini əziz tutur, qazilərimizə, müharibə iştirakçılarına yüksək hörmətlə yanaşır. Ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər ardıcıl və planlı şəkildə həyata keçirilir. Dövlətimizin başçısı həmin kateqoriyadan olan insanlara mənzil, avtomobil təqdim olunan mərasimlərdə Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə iştirak edir, şəhid ailələri, qazilərlə görüşür, hərbçilərimizin qəhrəmanlıqlarından söz açır. Görünən odur ki, dövlətimiz həmişə onların yanındadır, bütün problemlərinin həlli istiqamətində əlindən gələni edir.

2019-2020-ci illərdə 1997-ci il avqustun 2-dək olan dövrdə şəhid olmuş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələrinin birdəfəlik ödəmə ilə təmin edilməsi proqramı uğurla icra edilmişdir. Artıq dövətimizin başçısının müvafiq Fərmanı ilə Birinci Qarabağ müharibəsində iştirak etmiş və sağlamlığını itirmiş, ümumilikdə, 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçular və daxili işlər orqanları əməkdaşlarına, onlardan vəfat edənlərin vərəsələrinə birdəfəlik ödəmələrin verilməsinə başlanılıb. Bu proqram dövlətimizin müharibə əlillərinə olan qayğısının növbəti təzahürüdür.

Onlara verilən birdəfəlik ödəmənin məbləği I dərəcə əlilliyə görə 8 800 manat, II dərəcə əlilliyə görə 6 600 manat, III dərəcə əlilliyə görə 4 400 manat müəyyən edilib. Təbii ki, bu qərar minlərlə müharibə əlili olan vətəndaşlarımıza, onların ailələrinə böyük maddi-mənəvi dəstəkdir.

Əminliklə deyə bilərik ki, dünyanın heç bir yerində müharibələrdə həlak olanlara, yaralananlara Azərbaycandakı kimi yüksək münasibət nümayiş etdirilmir. Bu, cənab Prezidentin humanist xarakterli siyasi fəaliyyətinin əsas tərkib hissəsidir. Prezident İlham Əliyev hər zaman xalqının yanında olub və onun sosial rifah halının yüksəldilməsi istiqamətində ardıcıl iş aparır. Bunu dövlətimizin başçısının müvafiq fərmanı bir daha təsdiqləyir.

**Səttar MÖHBALIYEV,**
**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı.**

Respublika.- 2022- ci il.- 4 avqust.- S. 8.